# HACIQABUL

№ 10 (644)

4 may 2016-cı il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti




# Qüdrətli ordumuzun məğrur Sərkərdəsi

***Qorxmaz və məğrur Ali Baş Komandanı, onun ətrafında sıx birləşmiş xalqı, güclü iqtisadiyyatı, qüdrətli ordusu və beynəlxalq dəstəyi olan müstəqil Azərbaycanla hesablaşmaq vaxtıdır!***

***Artıq reallıq dəyişib və tamam başqadır!***

***Azərbaycan Ordusu hər an irəliyə getməyə, işğal altındakı torpaqları azad etməyə hazırdır və qadirdir.***

## 2016-cı il may ayı üçün Hacıqabul rayon İcra Hakimyyəti Başçısı Aparatında vətəndaşların qəbul günləri

| Sıra №-si | Vəzifəsi | Həftənin günləri | Qəbul saatı |
|---|---|---|---|
| 1 | İcra Hakimiyyətinin Başçısı | I | 15:00 |
| 2 | İcra Hakimiyyəti Başçısının birinci müavini | II | 14:00 |
| 3 | Başçının müavini-İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri | III | 14:00 |
| 4 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | IV | 14:00 |
| 5 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanı ilə iş şöbəsinin müdiri | V | 14:00 |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri | VI | 10:00 |

**Qeyd: Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları:**
(02120) 4-41-91, (02120) 4-41-58

# Vətənpərvərlik tərbiyəsi - günün vacib məsələsi

***Dünyanın harasında oluruqsa olaq, həmişə Vətən torpağı üçün darıxmışıq, qəribsəmişik doğma elimiz-obamız üçün. Bu sonsuz sevgi, bu güclü istək ana laylası kimi qanımıza, ruhumuza hopub. Ünvanı Vətən olan bu sevginin yolunda qurban olmaq, şəhidlik zirvəsinə ucalmaq şərəf sayılır, ən uca məhəbbət və ehtirama layiq tutulur.***

Rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbir də məhz vətənpərvərlik mövzusuna həsr olunmuşdu.

YAP rayon təşkilatının təşkilatçılığı ilə keçirilən tədbirdən öncə rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov və bir qrup tədbir iştirakçısı ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək ulu öndərə ehtiramlarını bildirdilər, abidə önünə tər gül dəstələri düzdülər.

Tədbiri açan YAP rayon təşkilatının sədri Hafiz Bəşirov çıxış edərək Azərbaycan Ordusunun erməni təxribatçılarının hücumunu dəf edərkən göstərdiyi şücaətdən danışdı, bunu vətənpərvərlik ruhu, milli-mənəvi dəyərlərimizin aşıladığı hiss kimi dəyərləndirdi.

**(Davamı 2-ci səhifədə)**

## *RİH Başçısının səyyar qəbulu*

# Kəndin problemlərindən danışıldı, arzu və təkliflər dinlənildi

*Hacıqabul rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarovun kəndlərimizdə ənənəvi səyyar qəbulu rayonun Qızılburun kəndində keçirildi. Kənd məktəbində keçirilən qəbulda kənd sakinləri, ağsaqqallar, sahibkar və torpaq mülkiyyətçiləri iştirak edirdi. Kənd camaatının məişət, təsərrüfat, iş şəraiti ilə maraqlanmaq, onların üzləşdiyi bəzi problemləri yerindəcə həll etmək məqsədi ilə görüşə gəlmiş RİH Başçısını və rayonun hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət idarə, təşkilatlarının rəhbərlərini qəbul iştirakçıları razılıqla qarşıladılar.*



Kənd sakinlərini RİH Başçısı səmimi salamladıqdan sonra bildirdi ki, bu cür qəbulların keçirilməsində məqsəd yerlərdə insanların qayğı və problemləri ilə maraqlanmaq, onların həllinə köməklik göstərməkdir. Qeyd etdi ki, bu problem və qayğıları hissə-hissə aradan qaldırmağa çalışacağıq.

Kənd sakinləri də Başçının kəndə gəlişindən istifadə edərək üzləşdikləri bəzi problemlərlə bağlı arzu və istəklərini dilə gətirdilər.

Çıxışlarda Azərbaycan Ordusunun erməni silahlı qüvvələrinin təxribatına verdiyi tutarlı cavab gündəmə gəldi, qəbul iştirakçıları Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdiklərini, ölkə başçısını daim dəstəkləyəcəklərini bildirdilər. Sonra kəndin bir sıra preblemlərini dilə gətirdilər.

İlk öncə kənd sakini Əzizağa Əhmədov söz alaraq görülən işlərə görə minnətdarlıq hisslərini dilə gətirdi, sonra kənddə olan içməli su problemindən danışdı.

Xalid Babayev isə əkin suyunun vaxtlı-vaxtında verilməməsindən danışdı. Qeyd etdi ki, onlar əkinləri ni Pirsaatçay su anbarından gələn su ilə suvarırlar. Anbara su yığılması isə yağışların yağmasından asılıdır.

Digər kənd sakinləri Azər Məmmədov köhnə evlərin sənədləşməsi ilə bağlı köməklik göstərilməsini, Abdulməcid Kərimov heyvanların xəstəliyinin qabağının alınması ilə bağlı vaksinlərin vurulmasına köməklik göstərilməsini, Xasaxanım Qaçayeva qaz problemi ilə bağlı, Nüsrət Rəhimov isə kəndarası yol problemi ilə bağlı arzu və istəklərini bildirdilər.



Bütün təklif və müraciətləri diqqətlə dinləyən RİH Başçısı səsləndirilən problemlərin nisbətən asan olanlarının elə anındaca həlli üçün aidiyyatı təşkilat rəhbərlərinə göstəriş verdi. Həlli üçün zaman və vəsait tələb olunan problemlərin isə tezliklə aradan qaldırılması üçün tapşırıq və tövsiyyələrini verdi.

RİH Başçısı torpağı dövlətin əsas sərvətlərindən biri kimi dəyərləndirib, onun hər qarışından səmərəli istifadə edilməsi barədə kənd sakinlərinə tövsiyyələrini verdi.

***"Hacıqabul"***

# Vətənpərvərlik tərbiyəsi - günün vacib məsələsi






(Əvvəli 1-ci səhifədə)

Gənc nəslin vətənpərvərlik tərbiyəsində, milli-mənəvi dəyərlər daşıyıcısı kimi yetişməsində bu günkü ordumuzun rəşadətinin böyük rolu var -deyən natiq Azərbaycan Ordusunun qələbəsindən danışdı, xalqın ovqatındakı vətən sevgisinin bu gün daha yüksək olduğunu gündəmə gətirdi. Bildirdi ki, bu sevgi Milli Ordumuza erməni işğalçılarının təxribatının qarşısını almağa, düşməni geri oturtmağa , vacib strateji mövqelərə yiyələnməyə stimul verib.

Tədbirdə rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov, rayon Ziyalılar Cəmiyyətinin sədri Şükür Məmmədov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin əməkdaşı Elçin Əliyev, hərbi çağırışçı Arif Əsədov çıxış etdilər.

Sonda rayon İcra Hakimiyyəti Başçısının 1-ci müavini çıxış edərək qüdrəti artan ordumuzun bu günündən danışdı. Həlak olan şəhidlərimizin və mülki vətəndaşların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Natiq çıxışında vətənpərvər oğul böyüdən, qəhrəman nəsil yetişdirən xalqımızın gələcəyinin işıqlı və etibarlı əllərdə olduğunu qeyd etdi.

***"Hacıqabul"***

# Sizə güvənirik, Azərbaycan əsgəri!




Rayon Heydər Əliyev Mərkəzində Mərkəzin və şəhər kitabxanasının təşkilatçılığı ilə "Sizə güvənirik, Azərbaycan əsgəri!" adlı tədbir keçirildi.

Əvvəlcə məktəblilərin və Mərkəzin dərnək üzvlərinin vətənpərvərlik, müharibə mövzularına həsr olunmuş rəsmlərindən ibarət sərgiyə baxış keçirildi. Sonra tədbirin rəsmi hissəsi dəyirmi masa ətrafında davam etdirildi.

Tədbirdə son günlər cəbhəboyu rayonlarda baş verən hadisələrdən, igid ordumuzun rəşadətindən danışıldı. Qeyd olundu ki, aprelin 2-dən etibarən Azərbaycan-Ermənistan təmas xəttində baş verən toqquşmalarda Azərbaycan Silahlı Qüvvələrinin 93 hərbi qulluqçusu həlak olmuş, 34 nəfər güllə yarası almışdır.

Həlak olanlardan 52 nəfəri əsgər, 10-u müddətdən artıq Hərbi Xidmət Qulluqçusu, 10-u gizir, 21 nəfəri isə zabitdir.

Sonra Vətən uğrunda canlarından keçən igidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi.Tədbirdə rayon Mərkəzi kitabxanasının direktor əvəzi Dövran Həsənov çıxış edərək bildirmişdir ki, Vətəni qorumaq şərəfli bir yoldur. Aprel ayının 2-də erməni təxribatçılarına layiqli dərs verildi. Düşmən Azərbaycan Silahlı Qüvvələrinin gücünü gördü. Bizim hər birimizin ən böyük arzusu qələbədir, işğal olunmuş torpaqlarımızın, doğma Qarabağımızın geri qaytarılması, azad olunmasıdır. Mən inanıram ki, qeyrətinə arxalandığımız, ümidmizi bağladığımız igid oğullarımız bizi bu bəladan xilas edəcəkdir. Qarabağ həsrətimizə son qoyulacaqdır.Sizə güvənirik, sizə arxalanırıq, Azərbaycan Əsgəri, sizinlə fəxr edirik!

Sonra şəhər 10 saylı orta məktəbin 7-ci sinif şagirdlərinin ifasında şeirlər səsləndi.

Tədbir "Heydər Əliyev Vətənin keşiyində" sənədli filminin tamaşası ilə sona çatdı.

***Aytən Zülfəliyeva,***
***rayon Heydər Əliyev Mərkəzinin direktoru***

# Bəşəriyyətin bəlası - narkomaniya



Bəşəriyyətin ciddi bəlasına çevrilən narkomaniya təhlükəsinin qarşısını almaq, təbliğat işlərini genişləndirmək məqsədilə rayon Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə aprel ayı ərzində silsilə maarifləndirici tədbirlər keçirildi.

İlk görüş şəhər 1 saylı tam orta məktəbdə keçirildi. Tədbirdə rayon Ailə və Uşaqlara Dəstək Mərkəzinin direktoru Aynur Qasımzadə, şəhər 1 saylı tam orta məktəbin direktoru Cəmilə Ağamaliyeva, RPŞ-nin YYÇPİTQ-nun baş inspektoru, polis mayoru Ziya Yolçuyev, rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov çıxış etdilər.

Qeyd etdilər ki, "narkomaniya" və "ölüm" sözləri bu gün insanların təsəvvüründə sinonim sözlərə çevrilib. Müasir dövrümüzdə insanlıq üçün böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılmışdır.

**(Davamı 4-cü səhifədə)**

# Vətənimizin ərazi bütövlüyünü birgə qoruyaq



Atbulaq kənd Mədəniyyət evi, kənd klubu, kənd tam orta məktəbi və Kürçülü kənd tam orta məktəbi, Kürçülü kənd kitabxana filialının təşkilatçılığı ilə "Vətənimizin ərazi bütövlüyünü birgə qoruyaq" devizi altında hərbi-vətənpərvərlik ruhunda tədbir keçirildi. Cəbhə xəttində düşmənlə döyüşlərdə şəhid olan hərbçilərimizin və mülki şəxslərin ruhu bir dəqiqəlik sükutla yad edildi.

Tədbirdə son günlər cəbhədə baş verən hadisələrdən danışıldı, erməni işğalçılarının cəbhədə təxribatlar törətdiyi və Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələri diqqətə catdırıldı. Qeyd olundu ki, Azərbaycanın işğal altında olan bütün əraziləri azad ediləcək, üçrəngli bayrağımız bütün Qarabağda dalğalanacaqdır.

Atbulaq kənd Mədəniyyət evinin direktoru Əminə Gülməmmədova çıxışında qeyd etdi ki, aprelin 2-dən başlayaraq işğalçı Ermənistan cəbhə xəttindəki bölmələrimizi və yaşayış məntəqələrimizi amansız atəşə tutmuş, cavab olaraq ordu hissələrimiz tərəfindən düşmənə ağır zərbələr endirilmişdir.

Sonra əllərində dalğalanan üçrəngli bayraqlar olan məktəblilərin söylədikləri şerlər alqış sədaları ilə qarşılandı.

***Hüseyn Nəsirov,***
***Atbulaq kənd klubunun müdiri***

# Adını Qarabağ tarixinə yazdıran igid...



Bu gün Azərbaycanın hər elində, obasında Vətən torpaqlarının düşmən tapdağından, işğalından azad olunmasında rəşadət və mərdlik göstərən igid oğullarımıza rast gəlmək mümkündür.

Bu il aprel ayının 1-dən 2-nə keçən gecə düşmən minasına düşərək, bir ayağını itirmiş hərbçi həmyerlimiz Rizvan Famil oğlu Qarayev bununla sağlamlığını itirsə də, adını ölkəmizin hərb tarixinə, Qarabağ tarixinə yazdırmış oldu...

Aprelin 4-də dövlət başçısı İlham Əliyev hərbi qospitalda yaralılarla baş çəkərkən igid həmyerlimizi də hərbi xəstəxanada yoluxmuşdur. Aprel ayının 6-da isə ölkənin birinci xanımı Mehriban Əliyeva Heydər məscidində döyüşcü və şəhid anaları ilə görüşmüş, onlara belə igid, cəsur oğullar yetişdirdiyinə görə minnətdarlıq hisslərini bildirmişdir. Həmin döyüşçü analarından biri də Rizvanın anası idi.

1992-ci il iyunun 12-də Hacıqabul şəhərində anadan olmuş Rizvan şəhər 4 saylı orta məktəbdə 9 il təhsil aldıqdan sonra Şirvan şəhərindəki 20 saylı liseydə təhsilini davam etdirmişdir.

2010 (oktyabr)-2012 (aprel) tarixləri aralığında həqiqi hərbi xidmətdə olmuş həmyerlimiz tərxis olunduqdan sonra bir müddət "Polad inşaat" müəssisəsində işləyib.

2015-ci ilin dekabrında müddətdən artıq hərbi xidmətə keçən Famil N saylı hərbi hissədə kəşfiyyatçı kimi fəaliyyət göstərmiş, Tərtərin Marquşavan istiqamətində, Lələtəpə adlanan yüksəklik uğrunda döyüşdə düşmən minasına düşərək bir ayağını itirmiş, digərində mina qəlpələri ilə Bakıdakı hərbi xəstəxanaya yerləşdirilmişdir.

Həmyerliləri igid döyüşçü Rizvan Famil oğlu Qarayevlə fəxr etdiklərini bildirməklə, tezliklə sağalmasını arzulayır, canı bahasına Vətənin ərazi bütövlüyünü qoruduğuna görə ona minnətdar olduqlarını bildirirlər.

***M.Hüseynoğlu,***
***rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru***

# Əhalinin tibbi müayinəsi davam edir

## *Bu günə kimi 49476 nəfər rayon sakini tibbi müayinədən keçib*



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq 2016-cı ilin fevral ayının 15-dən əhalinin tibbi müayinəsinə başlanılmışdır.

Müayinələrin keçirildiyi Uşaq Tibb Mərkəzində əhalinin kütləvi dispanzerizasiyasına ciddi hazırlıq işləri görülmüş, müayinələr əvvəlcədən müəyyənləşdirilmiş qrafik əsasında həyata keçirilir.

Tibbi müayinələrin keçirilməsi üçün təcrübəli, yüksək ixtisaslı mütəxəssislərdən ibarət həkim briqadası fəaliyyət göstərir. Əhalinin sağlamlığının etibarlı şəkildə qorunması, xəstəliklərin erkən aşkar edilərək insanların müalicəyə cəlb olunması məqsədi ilə keçirilən bu kampaniya hamının ürəyincədir. Xəstəliklərin ilkin dövrdə aşkar olunması, xəstələrin dispanser qeydiyyatına götürülməsi, sonrakı dövrlərdə onların müayinə və müalicəsində böyük əhəmiyyət kəsb edir.

Aldığımız məlumata görə bu günə kimi rayonda 49476 nəfər rayon sakini tibbi müayinədən keçirilmişdir. 548 ilkin xəstə aşkar olunmuşdur. Müayinədən keçirilən insanlardan 1626 nəfəri ambulator, 222 nəfəri isə stasionar müalicəyə cəlb olunmuşdur. İnsanlarda aşkarlanan xəstəliklərin əksəriyyəti ürək-damar, tənəffüs yollarının xəstəlikləri və soyuqdəymə ilə əlaqədar olmuşdur.

Əhalinin tibbi müayinədən keçirilməsi ilə əlaqədar sakinlər arasında maarifləndirmə işləri genişləndirilmişdir.

***"Hacıqabul"***

# Bizim Hacı həkim...

***Sağlam bədəndə-sağlam ruh olar deyimi yada düşəndə ilk növbədə əli şəfalı, ağ xalatlı həkimləri xatırlayırıq. Sağlamlığın keşiyində duran bu insanlar şəfa verdikləri hər bir kəsin ağrı-acısını, iztirabını onlarla birgə yaşayırlar. Həyatından əlini üzmüş, ömrünə ümüd bağlamayan insan ilk növbədə həkimə pənah aparır, nicat yolunu onun əllərində tapır. Bu çətin, sınaqlarla dolu peşəni seçmək özü də bir sınaqdır. Ona görə də bu yolu öz elmi, biliyi ilə seçənlər yalnız alqışlanmağa layiqdirlər. Bütün sənətlər şərəfli və gözəldir. Hansı sənət olursa olsun. Onu gərək yaxşı biləsən ki, həmin sənət də səni sevindirsin və səni heç vaxt darda qoymasın.***



Öz şəfalı əlləri ilə yüzlərlə, minlərlə adamın harayına çatan, dadına yetişən, həyatlarını xilas edən, öz peşəsini ürəkdən sevən həkimlərimizdən biri Hacıqabul Mərkəzi rayon Xəstəxanası cərrahiyyə şöbəsinin müdiri Hacı Həmidovdur. Aqillər demişlər: ağıllı adamların dörd xüsusiyyəti olar: gülər üzü, şirin dili, rəhm edən qəlbi, açıq əli. Bu keyfiyyətləri Hacı Həmidovda görən, şəfalı əllərinin bəhrəsini hiss edən, yenidən həyata qaytarılan xəstələr, bu xəstələrin sahibləri onu hörmətlə "bizim Hacı doktor" deyə çağırırlar. Bu, həkimin xalq içərisində, yerli əhali arasında qazandığı nüfuzdan xəbər verir.

Hacı Həmidov 1962-ci il yanvarın 30-da Hacıqabul rayonunun Navahı kəndində anadan olub. 1979-cu ildə Hacıqabul şəhər 9 saylı (indiki 6 saylı ) orta məktəbi bitirib.Əmisi mərhum Həmid Həmidov yarım əsrə yaxın əhalinin sağlamlığı keşiyində dayanmış tanınmış cərrah idi. Həkimlik sənətini seçmək, əmisinin yolunu davam etdirmək Hacının çoxdankı arzusu idi. Elə bu arzu ilə o, sənədlərini 1980-cı ildə Azərbaycan Dövlət Tibb İnistitutunun müalicə-profilaktika fakültəsinə verdi. Qəbul imtahanlarından müvəffəq qiymət alan Hacı ali məktəb tələbəsi olmaq şərəfinə nail oldu. Onun bu uğuruna ürəkdən sevinən atası Yedigar kişi, anası Əminə xanım, müəllimləri, dostları oldu. Ancaq Hacının bu nailiyyətinə onlardan da çox sevinən əmisi Həmid doktor qardaşı oğlunun gələcəyinə böyük ümidlər bəsləyir və onun yaxşı cərrah olacağına inanırdı.

Hacı Həmidov Tibb İnstitutnda təhsil aldığı illərdə mühazirələri səylə mənimsəyir, semestr imtahanlarını müvəffəqiyyətlə başa vurar, Bakının müxtəlif xəstəxana və klinikalarında təcrübə keçərək aldığı elmi biliklərin uğurlu tətbiqinə nail olardı. Indi Tibb Universiteti adlandırılan bu möhtəşəm Elm-səhiyyə ocağında Hacı Mustafa Topçubaşov, Nadir Balakişiyev, Böyükkişi Ağayev, Südeyif İmamverdiyev, Zəhra Quliyeva, Adilə Namazova kimi səhiyyə nəhənglərinin, görkəmli alimlərin kitablarından, mühazirələrindən bəhrələnir, elmi biliklərini gündən-günə artırırdı. 1985-ci ildə ali məktəbi müvəffəqiyyətlə bitirən Hacı bir müddət Bakı şəhər 3 saylı klinik xəsəxanada interna keçdi. 1986-ci ildən o,Sankt-Peterburq şəhərində Piroqov adına Tibb Universitetində iki il həkim işlədi, orada ordinaturanı bitirdi. 1994-cu ildə Vətənə qayıdan Hacı həkim Hacıqabul Mərkəzi rayon Xəstəxnasında cərrah kimi fəaliyyətə başladı.

20 ildən çoxdur ki, Hacı Həmidov şərəfli həkimlik peşəsini ləyaqətlə davam etdirir. Bu illər ərzində həkim öz işinə, peşəsinə vicdanla yanaşan, ləyaqətini qoruyan, gecə- gündüz ona pənah gətirən xəstələrin imdadına çatan, şəfalı əllərini, köməyini onlardan əsirgəməyən bacarıqlı cərrah kimi yerli əhalinin, rayon sakinlərinin sevimlisinə çevrilmişdir.

Hacı həkim xəstələrinin hamısına eyni nəvaziş göstərir, onun gülər üzünü görən xəstələr həyəcanlarını ilk dəqiqələrdən unudurlar. Mən deyərdim ki, Hacı həkimə bu irsi xüsusiyyət əmisi Həmid doktordan keçmişdir. Xəstəsi olan insanlar söyləyirlər ki, hətta cərrahı əməliyyat stolunda Həmid doktorun nurlu simasını görəndə, şirin zarafatlarını eşidəndə həyəcanımız yox olurdu.

Hacı həkim gözəl ailə sahibi, qayğıkeş atadır. Qızı Əminə Azərbaycan Tibb Universitetinin, oğlu Nicat isə Azərbaycan Aviasiya Akademiyasının tələbəsidir. Onun işi, qayğıları ilə maraqlanıram. Həkim deyir ki, qayğı, iş nə qədər şox olsa da insanların sağlamlığı keşiyində durmaq şərəflidir. İnsanları sağlam və gümrah görəndə sevinirəm. Fikirləşirəm ki, əziyyətimiz hədər getməyib. Axı onların taleyi bizim taleyimizdir. Bir həkim kimi qazandığım uğurlarda iş yoldaşlarımın işə məsuliyyətlə yanaşmaları, mehribançılıqları böyük rol oynaylb, həmişə kollektivin gücünə arxalanmışam. Bu baxımdan mənimlə birlikdə asissent kimi əməliyyatlara girən həkimlər Əli Rəhimov, Məhəmməd Gözəlov, xəstələrə təyin olunmuş müalicəni vaxtinda edən tibb bacıları Natavan Piriyeva, Aygün Əkbərova, Lətafət Əliyeva, Günay Quliyeva, Sahibə Hüseynova, Kifayət Qasımovanın əməklərini qeyd etməyə bilmərəm.

Hər bir işdə olduğu kimi tibb sahəsində də çalışqanlıq kollektivin əlbir səyləri, mehribançılıq uğurlarımıza stimul verir. Xəstələrə daim ana-bacı qayğısı ilə yanaşan tibb işçiləri Səmayə Səfərova, Elyarə Qasımova, növbətçi və palata tibb bacıları Yasəmən Ağaverdiyeva, Gülnarə Əzizova, Şölə Həşimova, Nazilə Paşayeva, Töhfə Quliyeva, Ofeliya Səfərova, Züleyxa Əzizova əllərindən gələni əsirgəmirlər.

Həkim-cərrah Hacı Həmidovdan xoş təəssüratla ayrılıb xəstəxananın dəhlizi ilə addımladıqda palataların birindən radioda səslənən Ələkbər Tağıyevin "Həkim" mahnısının sədalarını eşitdim:

*- Müqəddəs arzusu vardır hər kəsin,*
*Hər qəlbi dindirib, hər qəlbi güldürüb,*
*Oxşasın səsin.*
*Əlli il ömr etsə , yüz il ay həkim!*
*Arzular diləyir insan ay həkim!*
*Yaşamaq istəyir insan, ay həkim!*

***Nazim Fətixanoğlu***

# Gənclərin vətənpərvər kimi yetişməsində ailənin və məktəblərin rolu

Rayon Mədəniyyət və Turizm şöbəsinin tədbirlər planına uyğun olaraq Qarasu kənd klubunun, kitabxana filalının və Qarasu kənd Vüqar Mustafayev adına tam orta məktəbinin təşkilatçılığı ilə "Gənclərin vətənpərvər kimi yetişməsində ailənin və məktəblərin rolu" adlı ədbir keçirildi.



Tədbirdə Azərbaycan Ordusunun döyüş bölgəsində göstərdiyi qəhrəmanlıqlardan danışıldı. Qeyd edildi ki, hər bir xalqın tarixində elə taleyüklü hadisələr var ki, onilliklər, yüzilliklər keçdikdən sonra belə o, hadisələr unudulmur, xalqın yaddaşında, tarixində ən müqəddəs məqam kimi əbədiləşir. Aprelin 2-də ermənilərin törətdiyi təxribat zamanı ordumuzun erməni quldurlarına layiqli cavab verməsi insanların qəlbində, yaddaşında əbədi qalacaqdır.

Sonra Vüqar Mustafayev adına məktəbin hərbi müəllimi Bəhruz İmanov çıxış edərək bildirdi ki, son dövrlər Qarabağ savaşı göstərir ki, Azərbaycan doğurdan da qəhrəmanlar diyarı, igidlər və cəsurlar məkanıdır. Xalqımızın igid oğlanları heç vaxt Vətəni darda qoymamışdır. Müqəddəs Vətən torpağı uğrunda canlarından keçmişlər.

19 saylı kitabxana filialının müdiri Şamil Azadov bu gün şagirdləri qəhrəman ruhda böyüdüb tərbiyə etdikləri üçün məktəbin rəhbərliyinə, onların müəllimlərinə və valideynlərinə minnətdarlığımı bildirirdi. Qeyd etdi ki, xalqımızın igid oğulları bütün dünyaya sübut etdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Şəhidlərin qisası alınacaq və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

***Daşqın Hüseynov,***
***Qarasu kənd klubunun müdiri***

# Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü qeyd olundu

Rayon Tarix-Diyarşünaslıq muzeyində Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü münasibətilə tədbir keçirilmişdir.



Tədbirdə rayonun mədəniyyət işçiləri, 1, 2, 4, 6 saylı orta məktəblərin müəllim və şagirdləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Tədbirdə Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü barədə məlumat verilmişdir.

Şəhər 3 saylı tam orta məktəbin tarix müəllimi Mübariz Xəlilov Hacıqabul abidələri və tarixi yerləri barədə ətraflı məlumat vermişdir. Şəhər 1 saylı tam orta məktəbin tarix müəllimi Elmira Babayeva, Mərkəzi kitabxananın şöbə müdiri Maya Mehdiyeva çıxış etmişlər. Rayon Mədəniyyət Mərkəzinin direktoru Mehdiqulu Fərəcovun tərtib etdiyi Hacıqabul abidələrinin slayd toplusu tədbir ərzində nümayiş etdirilmişdir.

Tədbir üçün muzeyin fondundakı materiallardan ekspozisiya olaraq istifadə olunmuşdur.

***Məhəmməd İsayev,***
***rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru***

# 2015-ci ildə Hacıqabul rayonunda əmək bazarının vəziyyəti

Ölkədə son illərdə aparılan sosial-iqtisadi siyasətin aparıcı istiqamətlərindən biri də məşğulluğa dair siyasətin qurulması və əmək resurslarından səmərəli istifadə edilməsidir.Hacıqabul rayonunda da bu istiqamətdə əsaslı işlər görülmüş, əmək bazarının formalaşmasında keyfiyyət dəyişikliklərinə nail olunmuşdur.

2015-ci ildə Hacıqabul rayonunda iqtisadi fəal əhalinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artaraq 34,3 min nəfər olmuşdur.İqtisadi fəal əhali rayon üzrə ümumi əhalinin 47,3 faizini təşkil etmişdir.

İqtisadi fəal əhalinin tərkibində məşğul əhalinin xüsusi çəkisi 98,9 faiz, rəsmi işsiz statusu alanların xüsusi çəkisi isə, 1,1 faiz təşkil etmişdir.Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2015-ci ildə məşğul əhalinin sayı 2,5 faiz artmış, rəsmi işsizlərin sayı isə 9,6 faiz azalmışdır.Belə ki, 01.01.2016-cı ilə rayonda məşğul əhalinin sayı 34,0 min nəfər, məşğulluq xidməti orqanı tərəfindən rəsmi işsiz statusu alanların sayı isə 386 nəfər kimi qeydə alınmışdır.İşsiz statusu alanların 196 nəfəri kişi, 190 nəfəri qadın olmuşdur. 01.01.2016-cı ilə 11 nəfər müavinət alan şəxs qeydə alınmışdır.İl ərzində 61 nəfərə müavinət verilmişdir ki, onlardan da 25-i qadınlardır. 2015-ci ilin yanvar-dekabr aylarında 568 nəfər məşğulluq xidmətinə iş axtaran kimi müraciət etmiş, 470 nəfər işə düzəlmişdir.

Araşdırılan dövrdə rayonda məşğul əhalinin tərkibində muzdla işləyənlərin sayı 6,6 min nəfər olmuşdur ki, bunun da 67,5 faizi dövlət, 32,5 faizi qeyri-dövlət sektorunda çalışanlardır.Muzdla işləyənlər rayon üzrə məşğul əhalinin 19,4 faizini təşkil etmişdir. 2015-ci ildə Hacıqabul rayonunda muzdla işləyən qadınların sayı 2,3 min nəfər olmuşdur ki, bu da ümumi muzdlu işçilərin 35,2 faizini təşkil etmişdir. Rayon üzrə muzdla işləyən qadınların 86,5 faizi dövlət, 13,5 faizi isə qeyri-dövlət sektorunda çalışmışlar.

2015-ci ilin yanvar-dekabr aylarında rayon üzrə muzdla işləyənlərdən təxminən 30,2 faizi istehsal, 69,8 faizi isə xidmət sahələrində çalışmışlar.

Rayon üzrə muzdla işləyənlərin 15,8 faizi kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı, 0,1 faizi mədənçıxarma sənayesi, 2,6 faizi emal sənayesi, 10,2 faizi elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi, 1,3 faizi tikinti, 19,7 faizi topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri, 9,5 faizi nəqliyyat, anbar təsərrüfatı və rabitə, 0,2 faizi maliyyə fəaliyyəti, 5,4 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminatın vəzifələri, 20,6 faizi təhsil, 8,5 faizi səhiyyə və sosial xidmətlərin göstərilməsi, 4,9 faizi digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi sahəsində qeydə alınmışdır. Muzdla işləyənlərin əksəriyyəti iri və orta müəssisələrdə əmək fəaliyyəti ilə məşğul olmuşdur.

Dövlətin ən mühüm qayğılarından biri də əhalinin sosial rifahının gücləndiril-məsidir.Sosial müdafiə sahəsində əsas məqsəd əmək və məşğulluq fəaliyyətini güc-ləndirərək əhalinin həyat səviyyəsini yüksəltməkdir. Bu istiqamətdə əsas meyarlardan biri də orta aylıq nominal əmək haqqı hesab edilir.2015-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonunda iqtisadiyyatın bütün sahələri üzrə muzdla işləyən bir işçiyə düşən orta aylıq nominal əmək haqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz artaraq 290,6 manat olmuşdur.Minimum əmək haqqı araşdırılan dövrdə 125,0 manat müəyyən edilmişdir.2015-ci ildə Hacıqabul rayonunda muzdla işləyən bir qadın işçiyə düşən orta aylıq nominal əmək haqqı 237,2 manat olmuşdur.

2015-ci ildə rayonda ən yüksək orta aylıq nominal əmək haqqı maliyyə fəaliyyəti sahəsində 1054,9 manat qeyd edilmişdir.Orta aylıq nominal əmək haqqı göstəricisi iqtisadiyyatın kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı sahəsində 195,9 manat, sənaye sahəsində 277,1 manat, tikinti sahəsində 261,8 manat, nəqliyyat, anbar təsərrüfatı və rabitə sahəsində 527,5 manat, dövlət idarəetməsi və müdafiə, sosial təminatın vəzifələri sahəsində 365,0 manat, təhsildə 330,3 manat, səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində 167,8 manat, digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi sahəsində isə 261,2 manat olmuşdur.Ötən ilin müvafiq dövrü ilə müqayisədə orta aylıq nominal əmək haqqı göstəricisi maliyyə sahəsində 8,9 faiz, səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində 0,5 faiz, kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı sahəsində 2,3 faiz, ticarətdə 1,2 faiz, sənayedə 6,0 faiz , tikintidə 9,0 faiz artmışdır.

Ölkədə aparılan sosial-iqtisadi layihələr iqtisadiyyatda mühüm müsbət nəticələrə səbəb olmuş, makroiqtisadi sabitliyə nail olunaraq ardıcıl iqtisadi inkişaf təmin edilmişdir. Bu baxımdan ölkə Prezidentinin müvafiq fərmanları ilə təsdiq olunmuş 2009-2013, 2014-2018-ci illərdə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının rolu xüsusilə önəmlidir.2009-2015-ci illərdə proqramların icrası istiqamətində Hacıqabul rayonunda 2697 yeni iş yeri açılmış, onların da bilavasitə 2022-si daimi iş yeri olmuşdur.Daimi iş yerlərinin 22,3 faizi müəssisə və təşkilatlarda, 77,7 faizi isə fiziki şəxslər tərəfindən yaradılmışdır.2015-ci ilin yanvar-dekabr aylarında rayon ərazisində 632 yeni iş yeri açılmışdır ki, bunların da bilavasitə 474-ü daimi iş yerləri olmuşdur.2015-ci ilin yanvar-dekabr aylarında rayonda yeni açılmış daimi iş yerlərinin 462-nə işçi qəbul edilmişdir.

***Rayon Statistika İdarəsi***

# HACIQABUL

№ 10 (644) 4 may 2016-cı il


## “Debat” intelektual oyununun hazırlıq mərhələsi başa çatdı

Rayon Heydər Əliyev Mərkəzində “Debat” intelektual oyununun hazırlıq mərhələsi ilə bağlı Mərkəzin və rayon Mədəniyyət və Turizm Şöbəsinin nəzdində fəaliyyət göstərən “Gənc mədəniyyət işçilərinin koordinasiya kreativ qrupu” nun təşkilatçılığı ilə tədbir keçirildi.



Debat intellektual oyununun keçirilməsində əsas məqsəd intellektual, məntiqli, kreativ məktəblilərin üzə çıxarılması, məktəblilərdə natiqlik, həyata baxış səviyyəsinin yüksəldilməsi, bədii ədəbiyyata, mütaliəyə həvəs oyatmaq, tənqidi yanaşma qabiliyyətini formalaşdırmaqdan ibarət idi.

Oyunun təşəbbüsçüsü və sədri Padar qəsəbə tam orta məktəbinin riyaziyyat müəllimi Niyaməddin Məmmədov “Debat” intellektual oyunu haqqında tədbir iştirakçılarına məlumat verdi, oyunun yaranma tarixindən, prinsiplərindən söhbət açdı.

Oyunda rayonun 16 ümumtəhsil məktəbinin şagirdləri iştirak edəcək. Oyun 4 turdan ibarət olmaqla müxtəlif məktəblərdə keçiriləcək.

Tədbirdə oyunda iştirak edəcək qruplar müəyyənləşdirildi. Oyunun şərtləri ilə bağlı məktəbliləri maraqlandıran suallar cavablandırıldı.

***Aytən Zülfəliyeva, rayon Heydər Əliyev Mərkəzinin direktoru***

## Biz də əsgər olmaq arzusundayıq



Hörmətli redaksiya!

Biz iki qardaşıq və bu məktubu da ikimizin adından qürurla yazırıq. Bizim də arzumuzdur ki, böyüyəndə əsgər olaq, vətənimizin keşiyində dayanaq. Son vaxtların hadisələri isə bu arzumuzu daha da gücləndirdi. Biz qələbə xəbərini eşidib çox sevindik. Televiziyada əsgərlərimizi izləyərkən necə qürurlu və mərd olduqlarını da gördük, ana və nənələrimizin sevinc göz yaşlarını axıtdıqlarını və Allaha necə dua etdiklərini də.

Ali Baş Komandan İlham Əliyev başda olmaqla bütün Azərbaycan xalqı sizinlə qürur duydu, Azərbaycan əsgəri! Başqalarının gücünə arxalanıb qarşımızda durmaq istəyən ermənilər başa düşdülər ki, xalqımızın sizin kimi mərd, qəhrəman oğulları var.

Bu igidliyiniz əsl azərbaycanlı olduğunuzu göstərdi.

Bir dövlət o zaman güclü olur ki, onun güclü ordusu olur. Məhz Azərbaycan ordusu güclü və igid oğulları ilə fəxr edir. Vətənini, torpağını sevən hər bir əsgər bu gün qəhrəmandır. Üçrəngli bayrağımız həmişə zirvələrdə dalğalansın.

Sizdən milli ruh alan iki məktəbli əsgər kimi Sizə yalnız qələbə arzulayırıq.

**Hörmətlə:**

***Hilal və Vüsal Mirzəzadələr, şəhər 5 saylı tam orta məktəbin II və III sinif şagirdləri***

## El bilir ki, sən mənimsən...



Gənc mədəniyyət işçiləri koordinasiya kreativ qrupunun təşkilatçılığı ilə rayon Mərkəzi kitabxanası və onun şəhər, qəsəbə, kənd kitabxana filiallarının hazırladığı vətənpərvərlik mövzusuna həsr olunmuş “El bilir ki, sən mənimsən...” adlı şeir müsabiqəsinin II turu keçirildi. Müsabiqənin II turunda 22 nəfər məktəbli iştirak etdi. Həmin məktəblilər müsabiqənin I turunda iştirak etmiş, münsiflər heyətinin yekdil rəyilə müsabiqənin II turunda iştirak etmək hüququ qazanmışdır. Rayon Folklor klubunun geniş zalında keçirilən müsabiqənin II turu daha gərgin və yaddaqalan olmuşdur. Söylənilən şeirlər münsiflər heyəti tərəfindən diqqətlə dinlənilmiş, həyəcanlı anlar yaşayan məktəblilər arasından 12 nəfər fərqlənərək müsabiqənin III turunda iştirak etmək hüququ qazanmışdır.

***Maya Mehdiyeva, rayon Mərkəzi kitabxanasının şöbə müdiri***

## Bəşəriyyətin bəlası - narkomaniya

(Əvvəli 2-ci səhifədə)

* * *

Növbəti görüş şəhər 9 saylı tam orta məktəbdə keçirildi.

Tədbirdə şəhər 9 saylı tam orta məktəbin direktoru Elbrus Əliyev, RPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı Qadir Quliyev, RPŞ-nin YYÇPİTQ-nun baş inspektoru, polis mayoru Ziya Yolçuyev, RPŞ-nin NMQ-nin inspektoru, polis leytenantı Samit Misirxanov, rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elnur Əmiraslanov, rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov çıxış edərək bildirdilər ki, narkomaniya, narkotik maddələrdən qanunsuz istifadə olunması, onların ölkəmizdə yayılması, cəmiyyətimizin, xalqımızın bu günü və gələcəyi üçün təhlükəli haldır. Ona görə də bunlara qarşı mübarizə aparmaq dövlət orqanlarının əsas vəzifələrindən biridir. Dilindən, dinindən, irqindən, milliyyətindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, narkotizm XXI əsrin bəlasına, ailələrin faciəsinə, cəmiyyətin baş ağrısına, bəşəriyyətin fəlakətinə çevrilmiş acı və danılmaz reallıqdır.

* * *

Bu səpkidə növbəti maarifləndirici tədbir şəhər 8 saylı humanitar fənlər təmayüllü məktəb-liseydə keçirildi.

Tədbirdə məktəb-liseyin hərbi rəhbəri Ramil İbişov, RPŞ-nin YYÇPİTQ-nun baş inspektoru, polis mayoru Ziya Yolçuyev, rayon İcra Hakimiyyətinin məsul işçisi Turanə İmanova, rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov çıxış edərək bildirdilər ki, narkomaniya uzun illərdir dünyanın ən böyük problemlərindən biri kimi bəşəriyyəti düşündürür və narahat edir.

* * *

Daha bir görüş isə şəhər 10 saylı texniki fənlər təmayüllü məktəb liseydə keçirildi.

Tədbirdə məktəb-liseyin direktor əvəzi Xuraman Məmmədova, RPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı Qadir Quliyev, RPŞ-nin NMQ-nun inspektoru, polis leytenantı Samit Misirxanov, rayon İcra Hakimiyyətinin məsul işçisi Turanə İmanova, rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov, rayon Ailə və Uşaqlara Dəstək Mərkəzinin əməkdaşı Yasəmən Sevdimalıyeva çıxış etdilər.

Diskussiya şəraitində davam edən tədbirdə iştirakçıların fikirləri dinlənildi, onları narahat edən məsələlərə aydınlıq gətirildi. Tədbirin gedişi ərzində mövzunu özündə əks etdirən videoçarx nümayiş etdirildi.

***Səadət Kərimova***

## Şəhər birinciliyi sona çatdı

Hər il 26 - 29 aprel tarixlərində ənənəvi olaraq Kərəm Ağamalıyevin, Sabir Muradovun, Fəxrəddin Məmmədovun xatirəsinə həsr olunmuş, futbol üzrə şəhər birinciliyi keçirilir. Bu il şəhər birinciliyi 3 saylı tam orta məktəbin idman meydançasında keçirildi. Tədbirin açılışında şəhərimizin 10 ümumtəhsil məktəbi iştirak edirdi.

Yarışların açılışında İdman və Gənclər İdarəsinin rəisi Saleh Ələsgərov mərhum müəllimlər - Kərəm Ağamalıyevin, Sabir Muradovun, Fəxrəddin Məmmədovun həyat və yaradıcılığı haqqında məlumat verdi. 3 saylı məktəbin müəllimi Mübariz Xəlilov dövlətin Bədən tərbiyəsi və idmana olan qayğısından danışdı və futbolçulara uğurlar arzuladı.

Rəsmi hissədən sonra püşkatma mərasimi keçirildi və yarışlara start verildi. 8 saylı tam orta məktəbin və 3 saylı tam orta məktəbin futbolçuları daha yaxşı nəticə göstərərək finala çıxdılar.

Final gərgin idman mübarizəsi şəraitində keçdi və 3 saylı tam orta məktəbin futbolçuları 4:3 hesabı ilə qalib gəldilər. Beləliklə, 3 saylı tam orta məktəbin futbolçuları 1-ci, 8 saylı məktəb-liseyin komandası 2 - ci, 10 saylı tam orta məktəbin futbolçuları isə 3 - cü yerə çıxdılar.

Birinci yeri tutan komanda rayon Gənclər və İdman İdarəsi tərəfindən diplom və kubokla mükafatlandırıldı.

Qalib komandanın futbolçularından XI sinif şagirdləri Əli Adıgözəlov, Xəlil Əmirov, İsmayıl Rüstəmov, X sinif şagirdi Elnur Məmmədov, IX sinif şagirdi İsmayıl Əsgərov, VIII sinif şagirdi Novruz Nuriyev daha yaxşı oyun nümayiş etdirdilər.

***Bahar Məmmədova, şəhər 3 saylı tam orta məktəbin XI sinif şagirdi***

## Poeziya

### Gözünə dönüm

Siz ki, məni sevindirdiz,
Gözlərinə dönüm əsgər.
Ordumuz gücün göstərdi,
Hünərinə qurban, əsgər!

Torpağına sipər oldun,
Vətəninə sadiq qaldın,
Yurdun keşiyində durdun,
Namusuna qurban, əsgər!

Ordumuz hünər göstərdi,
Düşmənləri əzib tökdü,
Zirvələri alıb keçdi,
Əllərinə qurban, əsgər!

Bu savaşın uzun çəkdi,
Səbr, dözüm, bizi üzdü,
Axır ki, xoş xəbər gəldi,
Xəbərinə qurban, əsgər!

Savaşın mübarək olsun,
Şad xəbər bir-birin qovsun,
Qarabağım azad olsun,
Qəzanız mübarək, əsgər!

Ordumuza alqış olsun,
Azərbaycanım var olsun,
Şöhrəti əbədi olsun,
Şərəfinə qurban, əsgər!

Xalqımız ucada dursun,
Dünya durduqca var olsun,
Azadlıq bərqərar olsun,
Ordumuza qurban, əsgər!

***Xədicə Abasova, əməkdar müəllim***



**Hədiyyə Sabir qızı,**

***Yazıçılar Birliyinin üzvü, “Qızıl qələm” mükafatı laureatı***

### Bayrağım

Müqəddəslik rəmzidir,
Vətənimin səsidir,
Vahidliyin dərsidir,
Bayrağım.

Qarşısında əyilək,
Qürurundan sevinək,
Güldürəcək, güləcək.
Bayrağım.

Tarixçidi, dahidi,
Şəhidimin ahıdı,
Sözlərimin tağıdı,
Bayrağım.

### Açılmağı mənasız

Yarı yolda dayandım,
Nə bu günəm, nə dünən.
Keçmişimə boylandım,
Gələcəyim bir güman.

Xəyalların yerində,
Sonsuz boşluq bir uçurum,
Qəlbin dərinliyində,
Qayaydımsa da uçdum.

Bir sirr diddi qəlbimi,
Açılmağı mənasız,
Söyləmədim dərdimi,
Qaçılmağı mənasız.

Sən yoxluğa dönəndə,
Yox olmuşam düzü mən,
Sevgim susub səndən də,
Qucaqladım közü mən.

## Etibarsız sayılır

Navahı qəsəbə sakini İsrayıl İlfanova məxsus 22.01.1997-ci il tarixli 10 saylı Qeydiyyat Vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi şəhər 5 saylı tam orta məktəbin direktoru Gülüstan Almazovaya əzizi

**Tamara xanımın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

“Hacıqabul ”qəzetinin kollektivi Gülüstan Almazovaya əzizi

**Tamara xanımın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.


**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi
Qəzet “Hacıqabul” qəzetinin kompyuter mərkəzində yığılmışdır, “Son dakika MMC” mətbəəsində çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200